# Azərbaycanın xilasının başlanğıcı

**15 iyun — Milli Qurtuluş Günü... Xalqımızın taleyində dönüş anı... Məhz 22 il bundan öncə, tarixin bu günü xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edilmişdir. Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və möhkəmləndirilməsi istiqamətində atılan addımların qurtuluş məfkurəsinə istinad etməsi heç də təsadüfi deyil.**

XX əsrin sonlarında olduğu kimi, o ağır illərdən əvvəl Azərbaycan tarixinin taleyüklü məsələlərlə dolu bir dövrü də Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Azərbaycanda ilk dəfə 1969-1982-ci illərdə hakimiyyətdə olan ulu öndər xalqımızı zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisinə nail olmuş, geniş vüsət alan inkişaf proseslərinə təkan vermişdir. Ümummilli lider ömrü boyu Azərbaycan xalqının rifahı naminə çalışmış və hansı sahədə çalışmasından asılı olmayaraq, bacarığı, qabiliyyəti, fitri istedadı ilə diqqəti cəlb etmişdir.

Azərbaycan hələ ötən əsrin 70-ci illərində ulu öndərin "Qoy ədalət zəfər çalsın!" şüarı altında böyük uğurlara imza atmışdır. Məhz Heydər Əliyevin rəhbərliyi altında 13 il dalbadal keçmiş sovet hakimiyyətinin keçici qırmızı bayrağına layiq görülmüş Azərbaycan geridə qalmış kənd təsərrüfatı respublikasından qabaqcıl sənaye ölkəsinə çevrilmişdir. Heydər Əliyev milli kadrların yetişməsinə həmişə böyük qayğı və diqqətlə yanaşır, onların sonrakı inkişafını da izləyirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz Heydər Əliyev hakimiyyətdən məcburi uzaqlaşdırıldıqdan sonra baş verməsi təsadüfi deyil. Xalqımızın müdrik oğlu vəzifədə olarkən heç kim bu barədə danışmağa belə cürət edə bilmirdi. 1990-cı ilin yanvarında xalqımıza qarşı törədilən qanlı faciəyə dözə bilməyən Heydər Əliyev hadisələrin gərginliyinə, müxtəlif təhlükələrə baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, sovet rəhbərliyinə qarşı kəskin bəyanatla çıxış etdi. Onun bu tarixi çıxışı Azərbaycanın siyasi həyatında yeni dövrün başlandığını bildirən ilk çağırış idi.

Qanlı 20 Yanvar hadisələrindən sonra ulu öndərin böyük çətinliklər bahasına Azərbaycana qayıtması, keçmiş sovet sisteminin oyuncağı olan yerli rəhbərliyin Heydər Əliyevə qarşı xəyanətkar hərəkətləri, ona Bakıda yaşamağa və işləməyə imkan verilmədiyi də məlumdur.

Əvəzində, doğulub boya-başa çatdığı Naxçıvan torpağı, yerli əhali onu hədsiz sevgi, məhəbbət və inamla qarşılamış, hətta bütün maneələrə baxmayaraq, onu özünə rəhbər seçmişdir. Hər zaman olduğu kimi, öz gəlişi ilə Heydər Əliyev Naxçıvana yeni nəfəs gətirmiş, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim Azərbaycan torpağı dirçəlməyə başlamışdır.

Naxçıvanda idarəetmənin uğurlarını görən xalqımız Azərbaycan dövlətçiliyinin xilası naminə Heydər Əliyevin ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı... AXC-Müsavat hakimiyyəti dövründə yaranmış dözülməz şərait, ölkənin vətəndaş müharibəsi, parçalanma və dağılma təhlükəsi ilə üzləşməsi, Ermənistanın hərbi təcavüzünün genişlənməsi qəti addımların atılmasını, hakimiyyətin etibarlı əllərə tapşırılmasını tələb edirdi. Əlbəttə, xalqının görkəmli oğlu, alovlu vətənpərvər bu acı hadisələrə laqeyd qala bilməzdi.

Geniş ictimaiyyətin davamlı çağırışlarını nəzərə alan Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu öndərin bu qayıdışı Vətənin xilası, xalqın qurtuluşu idi.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Məhz həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Həmin il oktyabrın 3-də isə Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən Prezident seçildi. Ulu öndər ölkə Prezidenti kimi Vətəni və xalqı naminə yenə əvvəlki coşqunluqla, əzm və mətanətlə, işgüzarlıqla gecə-gündüz yorulmadan çalışmağa başladı.

Ümummilli liderimiz hakimiyyətə qayıdandan cəmi bir il sonra - 1994-cü ildə dərindən düşünülmüş neft strategiyasının reallaşdırılmasını təmin edən "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açaraq, dinamik inkişafın təməlini qoydu. Müstəqilliyimizin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın bu gün dünyada bənzəri olmayan sürətlə davamlı inkişafına zəmin yaratdı.

Ulu öndər Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda, təhsildə və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək. Bu gün Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır. Bu gün də mövcud iqtidarın monolit birliyi nəticəsində ümummilli liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə ulu öndərin layiqli varisi, praqmatik dövlət xadimi, bütün dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezidentimiz İlham Əliyevdir.

Bir sözlə, Milli Qurtuluş Günü Azərbaycanın indiki reallıqlarının və xoşbəxt gələcəyinin rəhnidir. Ulu öndərin işləyib hazırladığı müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoymuşdur. Hazırda Azərbaycanın inkişaf etməsi məhz Qurtuluş Günü ilə başlayıb və həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Azərbaycanın bütün dünya tərəfindən etiraf olunan dinamik inkişafı ilk növbədə vətəndaşlarımızın maddi-rifah halının yaxşılaşmasına xidmət edir, ölkəmiz sürətli tərəqqi yolu ilə inamla addımlayır.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində ümummilli lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim kimi yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Artıq neçə ildir ki, Azərbaycan Respublikasının milli qurtuluş yolu davam edir. Bu yol Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir, uğurlar qazanır. Heydər Əliyevin özü vaxtilə müdrikcəsinə demişdir: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz". Bu inam, bu qətiyyət Milli Qurtuluş Gününün mənası və verdiyi ibrət dərsləridir. Bu onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla, irəliyə aparacaqdır.

"...Heydər Əliyev qalib idi. O, bütün döyüşlərdən qalib kimi çıxıb, heç kim ona qalib gələ bilməmişdir. Əslində, o, yeni güclə, yeni enerji ilə siyasi mübarizəyə qoşuldu, yenidən qələbə qazandı və tarixdə qalib kimi qaldı. Heç kim və heç nə ona qalib gələ bilmədi. Nə xarici düşmənlər, nə də Azərbaycanda özünü ona rəqib qismində təqdim etməyə çalışanlar, bəzi uğursuz siyasətçilər. Ona zaman da qalib gələ bilmədi.

Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq o, ürəyimizdə yaşayır, qəlbimizdə yaşayır, onun əməlləri, ideyaları yaşayır, onun siyasəti yaşayır və əbədi yaşayacaqdır!". Azərbaycan Prezidenti cənab İlham Əliyevin söylədiyi bu fikirlər dair öz əhəmiyyətini saxlayır...



Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri etmiş, ömür yolu doğma vətənə xidmət nümunəsinə çevrilmişdir. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutmuşdur. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırmışdır. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilmişdir. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir.

Yuxarıda qeyd etdiyimiz kimi, ümummilli liderimiz Heydər Əliyev hakimiyyətdə olduğu illər ərzində milli təhsilin inkişafına, milli kadrların hazırlanmasına xüsusi diqqət və qayğı göstərib. Fərəhli haldır ki, həmin kadrların böyük əksəriyyəti indi həyatımızın müxtəlif sahələrində çalışır, bilik və bacarıqlarını dövlət quruculuğunun inkişaf etdirilməsinə sərf edirlər. Orta pillə kadrların hazırlanması, bölgələrdə iqtisadiyyatın, aqrar sahənin inkişaf etdirilməsi, məşğulluğun təmin olunması dövlət siyasətində mühüm yerlərdən birini tutur. Çalışdığım Ağdam Dövlət Sosial-İqtisad Kolleci cəbhə xəttində yerləşməsinə baxmayaraq qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsində müstəsna rol oynayır. Kollec rəhbərliyi və pedaqoji kollektiv təhsilin inkişafına və gənclər siyasətinə çox böyük önəm verir və yüksək səviyyəli kadr hazırlığı üçün var qüvvələrini sərf edir, milli dəyərlərə malik vətəndaş yetişdirilməsi üçün səylə çalışırlar.

Ulu öndər Heydər Əliyev həmişə müstəqil Azərbaycanın inkişafı naminə mübarizə aparmış və onu bütün təhlükələrdən xilas etmişdir. Ümummilli lider gənclər arasında geniş təbliğ olunur. Onlar sabaha dərin inamla baxır, yüksək vətənpərvərlik nümayiş etdirmək üçün Heydər Əliyev yolu ilə inamla addımlayırlar.

**Natiq CAVADOV,**
**Ağdam Dövlət Sosial-İqtisad Kollecinin direktoru,**
**iqtisad üzrə elmlər doktoru.**